DOI: 10.36719/AEM/2007-2020/53/57-59

**Könül Bəxtiyar qızı Cəmilova**
Bakı Dövlət Universiteti
konul.cemilova95@gmail.com

# İCRA HAKİMİYYƏTİ ORQANLARININ AKTLARI

***Açar sözlər:*** *hakimiyyət bölgüsü, icra hakimiyyəti, akt*
***Key words:*** *separation of powers, executive power, act*
***Ключевые слова:*** *разделение властей, исполнительная власть, акт*

## Giriş

İcra hakimiyyəti dövlət idarəçilik sahəsində aparıcı yer tutur. İcra hakimiyyəti orqanlarının aktları dövlət və vətəndaş arasında olan münasibətlərin tənzimlənməsinə yönəlmişdir. İcra hakimiyyəti orqanlarının aktları geniş sistemə malikdir. Ona görə də icra hakimiyyəti orqanlarının aktlarının tətbiqi ilə bağlı problemlərin həlli zərurəti yaranır. Həmin problemlərdən ən əsası icra hakimiyyəti orqanlarının aktlarının qəbulu və kolliziyası ilə bağlı olan problemlərdir. Bu sahədə qanunvericilikdə olan boşluqların doldurulmasına ehtiyac var. 1995-ci il noyabrın 12-də bilavasitə demokratik prinsiplər və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq, xalq hakimiyyətinin aliliyi, hakimiyyətlər bölgüsü və insan və vətəndaş hüquq va azadlıqlarını təsbit edən ilk konstitusiya qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiyası qanunverici, icra ve məhkəmə hakimiyyətlərinin bölgüsü prinsipini təsbit etdi. AR Konstitusiyasına əsasən icra hakimiyyəti dövlət hakimiyyətinin 3 qolundan biridir. Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. AR Konstitusiyasının 8-ci maddəsi Azərbaycan dövlətinin başçısı adlanır. Həmin maddənin təfsirindən aydın olur ki, Azərbaycan dövləti prezidentli respublikadır və icra hakimiyyəti orqanlarının geniş sistemi mövcuddur. İcra hakimiyyəti bir-biri ilə sıx bağlı olan dövlət orqanları sistemində təmsil olunur. AR Konstitusiyasına müvafiq olaraq icra hakimiyyəti orqanları status, ierarxiya, yurisdiksiya baxımından aşağıdakı sistemə malikdir:

1. Ali icra hakimiyyəti orqanı;
2. Yuxarı icra hakimiyyəti orqanı;
3. Mərkəzi icra hakimiyyəti orqanları;
4. Yerli icra hakimiyyəti orqanları.

Həmin sistemə uyğun olaraq icra hakimiyyəti orqanları geniş hüquqlara malikdir. Bu hüquqlardan biri də müvafiq aktlar qəbul etmək hüququdur. Bu fəaliyyətin məqsədi Azərbaycan dövlətinin idarə olunması üçün qanunqüvvəli aktların qəbul edilməsi ilə qanunların həyata keçirilməsidir. İcra hakimiyyəti orqanlarının aktları sistemi aşağıdakı kimidir:

1. Ali icra hakimiyyəti orqanının aktları-AR Prezidentinin fərman və sərəncamları. RR Konstitusiyasının 113-cü maddəsinə görə, ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir. Fərmanlar AR Prezidentinin fəaliyyətinin hüquqi formasıdır. Fərmanlar icra orqanlarının aktları içərisində əsas yer tutur ki, bu da Azərbaycan Respublikasında prezidentlik institutunun hüquqi təbiətindən irəli gəlir. Azərbaycan dövləti prezidentli respublika idarəçilik formasına malik olduğuna görə, AR prezidenti bir çox dövlət əhəmiyyətli məsələni icra qaydasında həll edə bilər. Bu məqsədlə AR prezidenti fərmanlar qəbul edir. Fərmanlarda qanunda işlədilən bir sıra anlayışlar dəqiqləşdirilir və qanunun realizə edilməsi üçün zəruri tədbirlər müəyyən edilir (Əsgərov, 2011:102). Prezident fərmanları normativ və qeyri normativ ola bilər. Normativ fərmanlar, digər bütün normativ aktlar kimi, hüquq normalarını müəyyən etməklə ümumi xarakter daşıması, uzun müddət qüvvədə olması və dəfələrlə tətbiq edilə bilməsi ilə səciyyələnir. Qeyri-normativ fərmanlar hüquqi aktların tətbiqi aktları olub, fərdi xarakter daşıyır. Konkret şəxsin təltif olunması haqqında fərmanı buna misal göstərmək olar. Sərəncam ümumi qaydalar müəyyən etmədiyinə görə, başqa sözlə ümumi qaydalar istisna olmaqla, digər məsələlərin tənzimləndiyi hallarda (çox zaman müəyyən şəxsə ünvanlanan və fərdi xarakter daşıyan akt) normativ xarakter daşımır, fərdi akt sayılır. Məsələn, Baş Nazirin vəzifəyə təyin olunması haqqında sərəncam. 2. Yuxarı icra hakimiyyəti orqanının aktları-Nazirlər Kabinetinin qərar, sərəncam qaydaları və s. Konstitusiyasının 120-ci maddəsinə görə, ümumi qaydalar müəyyən etdikdə AR Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir. Qərarlar daha mühüm qaydalar müəyyən edir, sərəncamlar isə adətən fərdi xarakter daşıyır, birdəfəlik tətbiq üçün nəzərdə tutulur. Nazirlər Kabineti tərəfindən əsasnamələr, nizamnamələr, qaydalar və digər aktlar qəbul edilə bilər. Lakin bunlar Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilməlidir. 3. Mərkəzi icra hakimiyyəti orqanlarının aktları- nazirlik, xidmət, agentliklərin qəbul etdikləri qərar, əmr, təlimat, əsasnamə və s. Bir qayda olaraq, həmin əmr, təlimatlar daxili münasibətləri nizama salır. Həmçinin bəzi hallarda nazirliklər vətəndaşlara münasibətdə müəyyən münasibətləri nizama salan aktlar-qərarlar verə bilər. Təlimatlar bütün hallarda normativ xarakter daşıyır. Təlimatlar təsərrüfat və mədəni quruculuq sahəsində dövlət rəhbərliyi məsələləri üzrə qanunların, fərmanların, hökumət qərarlarının həyata keçirilməsi vasitəsidir.

Təlimatlardakı göstərişlər ümumi xarakter daşımaqla qanunun, fərmanın və ya qərarın necə tətbiq olunmasını şərh edir. Əmrlər normativ və qeyri normativ xarakter daşıya bilərlər (Məlikova, 2019:173).

4. Yerli icra hakimiyyəti orqanlarının aktları-AR Konstitusiyasının 148-ci maddəsinə əsasən yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində ölkə qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər. Həmin aktlar qərar, sərəncam və əmr formasında qəbul olunur.

İcra hakimiyyəti orqanlarının aktları normativ hüquqi akt, normativ xarakterli akt və qeyri normativ hüquqi akt növündə ola bilər. Belə ki, AR Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının qərarları normativ hüquqi aktdır. Normativ hüquqi akt-tənzimlənməsi AR Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir. Beləliklə, AR Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarının əsas əlamətləri aşağıdakılardır:

1. Səlahiyyətli orqan tərəfindən qəbul edilir;
2. Məcburi xarakter daşıyır və dövlət məcburetməsi ilə təmin olunur;
3. Ümumi xarakter daşıyır, yəni qeyri müəyyən subyektlər dairəsi üçün nəzərdə tutulur;
4. Konkret hallara deyil, tipik hallara tətbiq edilir, yəni tənzimləmə predmetinə görə eyni xarakterli ictimai münasibətləri nizama salır.

Yerli icra hakimiyyəti orqanlarının qərarları isə normativ xarakterli aktdır. Normativ xarakterli akt-məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir. Yerli icra hakimiyyəti orqanlarının qərarlarının əsas əlamətləri aşağıdakılardır:

1. Məhdud subyektlər dairəsi üçün-müəyyən ərazi əhalisinə münasibətdə yaxud müəyyən sahə üzrə münasibətləri tənzimləmək üçün nəzərdə tutulur;
2. Dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur;
3. Məcburi xarakter daşıyır;
4. Müvafiq hüquqi akt əsasında qəbul olunur və onun müvafiq maddəsinə istinad edir;
5. İcra olunmamasına görə məsuliyyət müəyyən edə bilməz.

AR Prezidentinin sərəncamları, Nazirlər Kabinetinin sərəncamları isə qeyri-normativ hüquqi aktlardır. Qeyri-normativ hüquqi akt-konkret (birdəfəlik) təşkilati, nəzarət, sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan aktlardır. Həmin aktların əsas əlamətləri aşağıdakılardır:

1. Birdəfəlik xarakter daşıyır;
2. Konkret hallara şamil olunur;
3. Məcburi hüquqi qüvvəyə malikdir;
4. Müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq maddəsinə istinad etməlidir.

AR Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları qanun qüvvəli aktlardır. Yəni onlar qanun əsasında qəbul edilir və qanunun icrasına yönəlir.

Qanunla nəzərdə tutulmuş hallarda icra hakimiyyəti orqanlarının aktları inzibati akt qismində də çıxış edə bilər. Məsələn, mərkəzi icra hakimiyyəti orqanlarının qərarları fiziki və hüquqi şəxslərə tətbiq olunarkən inzibati akt qismində çıxış edir. İnzibati icraat haqqında qanunun 2-ci maddəsinə əsasən inzibati akt – inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir. İnzibati orqan - Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslərdir. Qanundan da məlum olduğu kimi icra hakimiyyəti orqanlarını inzibati orqan, icra hakimiyyəti orqanlarının qərarları isə inzibati akt kimi çıxış edə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətin əsas funksiyalarından biri də hüquqyaratma funksiyasıdır. Bu funksiyanın həyata keçirilməsi zamanı dövlət orqanları müxtəlif aktlar qəbul edirlər. İcra hakimiyyəti orqanlarını da öz səlahiyyətləri daxilində normayaratma prosesində iştirak edirlər. İcra hakimiyyəti orqanlarının aktları qəbul edilərkən normayaratma fəaliyyətinin əsas prinsiplərinə əməl edilməlidir. AR Konstitusiyasının 149-cu maddəsinə görə normativ hüquqi aktlar hüquqa və haqq ədalətə əsaslanmalıdır. Həmçinin aktlar AR Konstitusiyasına və qanunlarına uyğun olmalıdır. Aşağı dövlət orqanlarının aktları yuxarı dövlət orqanları aktlarına uyğun olmalıdır. Normativ hüquqi aktlarda bir birinə zidd müddəalar olmamalıdır, normayaratma prosesi demokratik və şəffaf olmalıdır. Normativ hüquqi aktlar daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına uyğun olmalıdır. Normativ hüquqi aktların yaradılması mərhələlərlə həyata keçirilir. Əvvəlcə normayaratma

fəaliyyəti planlaşdırılır, normayaratma təşəbbüsü irəli sürülür, normativ hüquqi akt qəbul edilir, normativ hüquqi akt AR Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilir və dərc edilir. Qanunvericilikdə normativ xarakterli aktların və qeyri normativ hüquqi aktların hüquqi statusunu tənzimləyən xüsusi qaydalar müəyyən edilməyib. Dolayısıyla icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları və qeyri normativ hüquqi aktları ilə bağlı məsələlər normativ hüquqi aktlar haqqında qanunla tənzimlənir. İcra hakimiyyəti orqanlarının aktlarının hüquqi qüvvəsi AR Konstitusiyası və "Normativ hüquqi aktlar haqqında" qanunla müəyyən edilir. Normativ hüquqi aktların hüquqi qüvvəsi normativ hüquqi aktın müvafiq ictimai münasibətlərə tətbiqinin məcburiliyini, onun digər normativ hüquqi aktlar barəsində üstünlüyünü və ya tabeliyini müəyyən edən xarakteristikadır. AR Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları bütün AR ərazisində məcburi hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir. AR Nazirlər Kabinetinin qərarları AR Konstitusiyasına, qanunlarına və AR Prezidentinin fərmanlarına zidd olmamalıdır. AR Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir. Mərkəzi icra hakimiyyəti orqanlarının aktları AR Konstitusiyasına, qanunlarına, AR Prezidentinin fərmanlarına və AR Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

## Nəticə

İcra hakimiyyəti orqanlarının aktlarının təhlili aktualdır. İcra hakimiyyəti orqanlarının aktları dövlət idarəçilik sahəsində aparıcı yer tutur. İcra hakimiyyəti orqanlarının aktlarının təsnifatı çox genişdir. İcra hakimiyyəti orqanlarının aktlarının qəbul olunması qaydaları qanunvericiliklə tam şəkildə əks olunmamışdır. İcra hakimiyyəti orqanlarının aktları arasında ziddiyyətlərin həll olunması konstitusiyada öz əksini tapmışdır. İcra hakimiyyəti orqanlarının aktlarının qəbulu prosesində qanunvericilikdə olan boşluqların doldurulması yollarının tapılmasına ehtiyac vardır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", Bakı, 2017. 92 s.
2. Əsgərov Z.A. "Konstitusiya hüququ". Dərslik. Bakı; Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.
3. Məlikova M. "Hüquq nəzəriyyəsi". Dərslik. Bakı; "Elm və təhsil" nəşriyyatı, 2019, 448 səh.
4. Straşun B.A. "Xarici ölkələrin konstitusiya hüququ" Ümumi hissə. Dərslik. Bakı. Qanun nəşriyyatı, 2007, 726 s.
5. http://e-qanun.gov.az/framework/21300
6. http://www.supremecourt.gov.az/static/view/3
7. http://e-qanun.gov.az/framework/11254

## Azerbaijan as a presidential republic

**Summary**

This article analyzes the acts of the executive authorities. There is an extensive system of acts of executive authorities. It determines the classification of acts of executive authorities. It also defines the place of acts of executive authorities in the legislative system. In addition, the rules for the adoption of acts of executive authorities are reflected in the article. The main focus is on resolving contradictions between the acts of the executive authorities. This article analyzes the ways to fill the gaps in the legislation in the process of adopting the acts of the executive authorities.

## Азербайджанское государство как президентская республика

**Резюме**

Эта статья анализирует акты исполнительных органов. Система актов исполнительных органов широка. Статья определяет классификацию актов исполнительных органов. Также статья определяет место актов исполнительных органов в законодательной системе. В этой статье автор отмечает правила принятия актов исполнительных органов. А также в этой статье основное внимание уделяется разрешению конфликтов между исполнительными органами. В данной статье анализируется пути преодоления пробелов в законотворческом процессе исполнительных органов.

**Reyçi: h.f.d. A.İbrahimova**

Göndərilib: 12.03.2020 Qəbul edilib: 14.03.2020